# Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasının

# *Nizamnaməsi*

***Bakı 2021***

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. “Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu Azərbaycan Milli Platforması” (bundan sonra Milli Platforma adlandırılacaq) Avropa İttifaqı (Aİ) Şərq Tərəfdaşlığı (ŞT) Vətəndaş Cəmiyyəti Forumunda (VCF) iştirak edən Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarını (VCT) könüllü təsis etdiyi ictimai birlikdir.
1.2. Milli Platforma Azərbaycan Respublikasının Konstitusiyası, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Nizamnaməsində və digər sənədlərində Milli Platformaların fəaliyyətinə aid nəzərdə tutulan müddəalar və bu Nizamnamə əsasında fəaliyyət göstərir. Milli Platforma öz fəaliyyətini Milli Platformanın Ümumi Yığıncağı tərəfindən qəbul edilən Etik Davranış Kodeksinə və digər daxili sənədlərə uyğun şəkildə həyata keçirir.
1.3. Milli Platforma Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusuna malik olur.
1.4. Milli Platforma hüquqi şəxs kimi qeydə alındıqdan sonra öz adından müqavilələr bağlaya, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə edə, vəzifələr daşıya, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış edə bilər.
1.5. Milli Platforma müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik ola bilər, banklarda hesablar aça və hesablaşmalar apara bilər.
1.6. Milli Platforma Ümumazərbaycan statusludur və onun fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.
1.7. Milli Platformanın hüquqi ünvanı Bakı şəhərində.. ünvanda yerləşir

## 2. MİLLİ PLATFORMANIN MƏQSƏDİ, VƏZİFƏLƏRİ VƏ FƏALİYYƏT PREDMETİ

2.1.Milli Platformanın əsas məqsədi Avropa İttifaqı Şərq Tərəfdaşlığı siyasətinin hazırlanması, icrası və monitorinqi prosesində Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarının səmərli iştirakını təmin etməkdir.
**2.2 . Milli Platformanın vəzifələri aşağıdakılardır:**
2.2.1.Avropa İttifaqı Şərq Tərəfdaşlığı siyasətinin hazırlanması, icrası və monitorinqində Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi;
2.2.2.Avropa İttifaqı Şərq Tərəfdaşlığı siyasətinin hazırlanması, həyata keçirilməsi ilə əlaqədar vətəndaş cəmiyyətinin Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi;
2.2.3.Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun işində Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarının iştirakının təmin edilməsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi,

2.2.4.Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının genişləndirilməsi, ikitərəfli əlaqələrin inkişaf etməsinə töhfə verilməsi;
2.2.5.Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında imzalanan razılaşmalardan irəli gələn məsələlərin monitorinqi və qiymətləndirilməsi;
2.2.6.Fundamental insan hüquq və azadlıqlarını, demokratik dəyərləri təşviq etməklə cəmiyyətdə müxtəliflik və plüralizmin gücləndirilməsi.
**2.3. Milli Platforma bu Nizamnamədə nəzərdə tutulan vəzifələrin icrası üşün aşağıdakı fəaliyyətləri həyata keçirir:**
2.3.1. Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun strukturları ilə kommunikasiyanın təmin edilməsi və əməkdaşlıq;
2.3.2. Avropa İttifaqı Şərq Tərəfdaşlığı Siyasətinin məqsədləri üzrə tədqiqatların aparılması və təkliflərin hazırlanması;
2.3.3. Dövlət qurumlarına, Avropa İttifaqı strukturlarına, və digər maraqlı tərəflərə öz yazılı mövqe və tövsiyələrini təqdim edilməsi;
2.3.4. Demokratik inkişafa, hüquq və azadlıqların müdafiəsinə və bütövlükdə vətəndaş cəmiyyətinin güclənməsinə yönəlik layihələrin həyata keçirilməsi;
2.3.4. İctimai vəkillik fəaliyyəti;
2.3.5.Avropa İttifaqı ilə əməkdaşlq məsələləri–Şərq Tərəfdaşlığı Siyasətinin əhatə etdiyi sahələr üzrə konfranslar, seminarlar, təlimlər və digər tədbirlərin təşkili;
2.3.5. Avropa İttifaqı ilə əməkdaşlıq, Şərq Tərəfdaşlığı Siyasəti və digər maraq doğuran sahələr üzrə müsbət xarici təcrübənin öyrənilməsi və təşviqi, təcrübə mübadiləsi.
2.3.6. Milli Platforma Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan edilməyən, təşkilatın yaradılması məqsədlərinə nail olmasına yönəldilmiş digər fəaliyyətlərlə də məşğul ola bilər.
2.3.7. Milli Platforma dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinə qanunsuz müdaxilə etmir, Azərbaycan Respublikası qanunvericiliyinə zidd hərəkətlərə yol vermir və bu Nizamnamənin tələblərindən kənara çıxmır. Milli Platforma siyasi partiyalara və siyasi hərakatlara maliyyə və başqa yardım göstərmir.

## III. MİLLİ PLATFORMANIN HÜQUQLARI

**3.1. Milli Platforma aşağıdakı hüquqlara malikdir:**
3.1.1. Məqsəd və fəaliyyəti barədə məlumatları sərbəst yaymaq;
3.1.2. Fəaliyyət predmetinə aid məsələlər üzrə proqram, konsepsiya, qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər, rəylər, tövsiyyələr və digər sənədlər hazırlamaq və müvafiq dövlət qurumlarına təqdim etmək
3.1.3.Müxtəlif məsələlərlə bağlı bülletenlər, elmi-kütləvi ədəbiyyat və digər materiallar çap etdirmək və onların yayımını həyata keçirmək, veb-saytlar yaratmaq;
3.1.3. Müxtəlif təşkilatlara üzv olmaq və beynəlxalq təşkilatlarla əlaqələr saxlamaq;

3.1.4. Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;
3.1.5. Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək;

## 4. MİLLİ PLATFORMANIN İŞTİRAKÇILARI

4.1.Milli Platforma iştirakçıları təsisçilər, üzvlər və köməkçilər ola bilər. Milli Platformanın iştirakçılarının hüquqi vəziyyəti «Qeyri-hökumət təşkilatları (ictimai Milli Platformalər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanunu və digər müvafiq normativ-hüquqi aktlara uyğun olaraq tənzimlənir.
4.2.Milli Platformanın Nizamnaməsini qəbul edən hər bir qeyri hökumət, qeyri-kommersiya təşkilatı, peşəkar assosasiyalar, həmkarlar ittifaqları Milli Platformaya üzv ola bilər. Dövlət və bələdiyyə qurumları, siyasi partiyalar, siyasi hərakatlar, dini qurumlar Milli Platformaya üzv ola bilməzlər.
4.3.Üzv olmaq istəyən təşkilatlar Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun yığıncağında iştirak üçün Forumun Katibliyi tərəfindən elan verildikdən sonra müvafiq ərizə ilə Foruma müraciət edirlər. Ərizələrə Forum tərəfindən qəbul edilmiş qaydalar əsasında baxılır və yeni üzvlər seçilir. Bu zaman Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Nizamnaməsində üzvlərin seçilməsi ilə bağlı nəzərdə tutulan prinsiplər və qaydalar nəzərə alınır. Ərizəsi müsbət qiymətləndirilmiş və Forumun illik yığıncağında iştirakı təsdiqlənmiş təşkilatların təmsilçisi 2 il müddətinə Forumun yığıncağında Milli Platformanın Nümayəndəsi statusunu əldə edir, təşkilat isə Milli Platformanın üzvü seçilir.
4.4. Milli Platformanın üzvləri bərabər hüquqludurlar.
4.5. Milli Platforma üzvlərinin aşağıdakı hüquqları vardır:
4.5.1. Milli Platformanın, Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun seçkili orqanlarına seçmək və seçilmək;
4.5.2. Qanunvericiliyə və bu Nizamnaməyə uyğun olaraq Milli Platformanın idarə olunmasında iştirak etmək;
4.5.3. Milli Platformanın fəaliyyətində iştirak etmək, təkliflərlə çıxış etmək;
4.5.4. Milli Platformanın həyata keçirdiyi layihələrdə iştirak etmək;
4.5.5. Milli Platformanın rəhbər orqanlarının fəaliyyətinə nəzarət etmək, onun seçkili orqanlarının və vəzifəli şəxslərinin fəaliyyəti barədə məlumat almaq;
4.5.6. Özünün hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, izahat vermək və Milli Platformanın müvafiq orqanına və məhkəmyə şikayət etmək.
4.5.7. Milli Platformanın üzvü yalnız Milli Platformanın Ümumi Yığıncağı, İdarə Heyəti tərəfindən səlahiyyət verildikdə Platformanı təmsil edə və onun adından çıxış edə bilər.
**4.6. Milli Platforma üzvlərinin vəzifələri aşağıdakılardır:**

4.6.1. Milli Platformanın Nizamnaməsi və digər daxili sənədlərinin tələblərinə riayət etmək;
4.6.2. Milli Platformanın seçkili orqanlarının qərarlarını yerinə yetirmək;
4.6.3. Milli Platformanın nüfuzuna xələl gətirəcək hərəkətlərə yol verməmək.
4.6.4. Milli Platformanın fəaliyyətində fəal iştirak etmək.

**4.7. Milli Platformanın üzvlüyünə aşağıdakı hallarda xitam verilir:**

4.7.1. Milli Platformanın Ümumi Yığıncağında üzürsüz səbəb olmadan ardıcıl iki dəfə iştirak etmədikdə;
4.7.2. Milli Platformanın fəaliyyətinə xitam verildikdə;
4.7.3. Milli Platforma üzvlüyündən könüllü çıxdıqda;
4.7.4. Milli Platformanın üzvlüyündən çıxarıldıqda.
4.7.5. Milli Platforma üzvü Milli Platformadan könüllü çıxdıqda Milli Platformanın İdarə Heyətinə bu barədə yazılı ərizə ilə müraciət edir. Ərizəyə İdarə Heyətində baxılır və müvafiq qərar qəbul edilir.
4.7.6. Milli Platformanın Nizamnaməsini, Etik Davranış Kodeksinin və digər daxili sənədlərin tələblərini pozan üzvlər barəsində, pozuntunun xarakterinə uyğun olaraq, «xəbərdarlıq», «töhmət», və «Milli Platformanın üzvlüyündən xaric etmə» kimi intizam tədbirləri görülür. İntizam tədbiri Milli Platformanın Nəzarət Təftiş Qrupu tərəfindən tətbiq edilir.
4.7.7.Milli Platformanın üzvü barədə tətbiq edilən intizam tədbirlərindən Ümumi Yığıncağa və qanunvericiliyə müvafiq olaraq məhkəməyə şikayət verilə bilər.
4.7.8.Milli Platforma öz üzvlərinin hüquqlarını və qanuni mənafelərini bütün instansiyalarda müdafiə edir.
4.8.Milli Platformada üzvlük haqqı yoxdur.

## 5. MİLLİ PLATFORMANIN İDARƏ OLUNMASI

5.1.Milli Platformanın idarəetmə orqanları aşağıdakılardır:
5.1.1.Milli Platforma üzvlərinin Ümumi Yığıncağı
5.1.2.Milli Platformanın İdarə Heyəti
5.1.3.Milli Platformanın Əlaqələndiricisi
5.1.3.Milli Platformanın Nəzarət - Təftiş Qrupu
5.1.3.Etik davranış məsələləri üzrə məsləhətçi
5.1.4 Milli Platformanın İşçi Qrupları

**5.2.Ümumi Yığıncaq** Milli Platformanın ali orqanı olub Milli Platformanın təsisçisi və üzvü olan təkilatların nümayəndələrindən ibarətdir. Ümumi Yığıncağın iclasları zəruri hallarda, lakin ildə bir dəfədən az olmayaraq keçirilir. Ümumi Yığıncaq Milli Platformanın icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə Milli Platformanın Əlaqələndiricisi tərəfindən çağırılır.
5.2.1. Ümumi Yığıncağın səlahiyyətlərinə aşağıdakı məsələlər daxildir:
5.2.2. Milli Platformanın Nizamnaməsinin qəbulu və ona dəyişiklər edilməsi;
5.2.3.Milli Platformanın əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;

5.2.4.Milli Platformanın icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
5.2.5.Milli Platformanın başqa təşkilatlarda iştirakı;
5.2.6.Milli Platformanın fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsi;
5.2.7.Milli Platformanın Əlaqələndiricisinin, İdarə Heyətinin təsdiq edilməsi, Nəzarət - Təftiş Qrupunun və Etik davranış məsələləri üzrə məsləhətçinin seçilməsi;
5.2.8. Milli Platformanın yenidən təşkili və ləğv edilməsi;
5.2.9. Bu Nizamnamədə nəzərdə tutulan digər səlahiyyətlərin həyata keçirilməsi.
5.3. Milli Platformanın təsisçilərinə və üzvlərinə Ümumi Yığıncağın yeri, vaxtı haqqında ən azı 2 həftə əvvəl məlumat verilir. Ümumi yığıncaq üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Qərarlar bu Nizamnamədə nəzərdə tutulan hallar istisna olmaqla, iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir.
5.4.Ümumi Yığıncaqda yazılı protokol aparılır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır, yığıncağın protokolu Milli Platformanın bütün üzvləri üçün əlçatan olmalıdır.
**5.5. Milli Platformanın İdarə Heyəti Milli Platformanın** Əlaqələndiricisi və İşçi Qrupların Əlaqələndiricilərindən ibarət tərkibdə formalaşır. İdarə Heyətinin səlahiyyət müddəti 2 ildir.
**5.5.1.Milli Platformanın İdarə Heyəti Milli Platformanın Ümumi Yığıncaqlararası dövründə Milli Platformanın cari fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir və aşağıdakı səlahiyyətlərə malikdir:**
5.5.2.Milli Platformanın cari fəaliyyəti ilə bağlı zəruri məsələləri müzakirə edir, Fəaliyyət Planlarını təsdiq edir.
5.5.3.Milli Platformanın filial və nümayəndələrini açır, onun rəhbərlərini təyin edir.
5.5.4.Milli Platformanın əsas, dövriyyə vəsaiti və pul vəsaiti ilə bağlı qərarlar qəbul edir
5.5.5.Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid olmayan digər səlahiyyətləri həyata keçirir.
5.5.6.Milli Platformanın İdarə Heyətinin iclasları zəruri olduqda, lakin rübdə bir dəfədən az olmayaraq keçirilir. İdarə Heyətinin iclaslarının vaxtı və gündəlik layihəsi haqqında onun üzvlərinə ən azı 1 həftə əvvəl məlumat verilir.
5.5.7. İdarə Heyətinin iclasları üzvlərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclaslarına Milli Platformanın Əlaqələndiricisi sədrlik edir. Qərarlar iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir.
5.5.8. Ümumi Yığıncaq qarşısında hesabatlıdır.
**5.6. Milli Platformanın Əlaqələndiricisi:**
5.6.1.Milli Platformadan ŞTVCF-ə seçilən nümayəndələri (deleqat) tərəfindən bu nümayəndələr arasından 2 (iki) il müddətinə seçilir.
5.6.2. Milli Platformanın Əlaqələndiricisi səsvermədə iştirak edən nümayəndələrin sadə səs çoxluğu ilə seçilir.
5.6.3.Nümayəndələrin hər biri öz namizədliyini və digər nümayəndənin namizədliyini irəli sürə bilər.

5.6.4. Milli Platformanın Əlaqələndirici seçilməsi üçün irəli sürülən namizədlər ingilis dilini bilməlidirlər.
5.6.5.Hər bir Platforma üzvü yalnız iki dəfə ardıcıl Milli Platformanın Əlaqələndiricisi seçilə bilər.
**5.7. Mili Platformanın Əlaqələndiricisi Milli Platformanın cari fəaliyyətinə təşkil edir və aşağıdakı səlahiyyətləri var:**
5.7.1.Milli Platforma ilə Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Rəhbər Komitəsi və digər idarəetmə orqanları arasında məlumat mübadiləsini, bəyanatların, informasiyaların və tədbirlər barədə məlumatların yayılmasını həyata keçirir. Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu ilə Milli Platformanın fəaliyyətinin əlaqələndirilməsi üçün digər zəruri tədbirləri həyata keçirir.
5.7.2.Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun illik iclasına Nümayəndələrin müəyyən edilməsi üçün seçkiləri İdarə Heyəti ilə birlikdə təşkil edir.
5.7.3.Milli Platformanın fəaliyyəti barədə illik hesabat hazırlayır Milli Platformanın Ümumi Yığıncağı və Vətəndaş Cəmiyyəti Forumunun Katibliyinə təqdim edir.
5.7.4.Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Rəhbər Komitəsinin iclaslarında iştirak edir.
5.7.5.Milli Platformanın iş planlarının hazırlanmasını təşkil edir və icrasını təmin edir;
5.7.6.Fəaliyyət istiqamətlərinə uyğun olaraq zərurət yarandıqda Milli Platformanın ekspert qruplarını və digər strukturlarını yaradır, onların işini təşkil edir;
5.7.7.Öz səlahiyyətləri daxilində müvafiq aktlar qəbul edir;
5.7.8.Platfomanı təmsil edir, onun adından müqavilələr və sazişlər bağlayır;
5.7.9.Ümumi Yığıncağın və İdarə Heyətinin səlahiyyətlərinə aid olmayan digər məsələləri, habelə Ümumi Yığıncağın, İdarə Heyəti və digər qurumlarının səlahiyyətləri çərçivəsində həvalə etdiyi məsələlərin icrasını təşkil edir.
5.7.10. Ümumi Yığıncaq qarşısında hesabatlıdır.
5.8.**Milli Platformanın Nəzarət - Təftiş Qrupu** Milli Platformanın Nizamnaməsinə və digər daxili sənədlərin tələblərinə əməl olunmasına, maliyyə vəsaitinin Milli Platformanın məqsəd vəzifələrinə uyğun xərclənməsinə nəzarət edir, bu Nizamnamə ilə nəzərdə tutulan hallarda və qaydada Milli Platforma üzvləri barəsində intizam tənbehləri tətbiq edir.
5.8.1. Nəzarət - Təftiş Qrupu Milli Platformanın Ümumi Yığıncağında 2 il müddətinə seçilir. Nəzarət - Təftiş Qrupunun say tərkibi Ümumi Yığıncaq tərəfindən müəyyən olunur.
5.8.2. Nəzarət - Təftiş Qrupunun fəaliyyəti Ümumi Yığıncaq tərəfindən qəbul edilən Əsasnamə ilə tənzimlənir.
**5.9. Etik davranış məsələləri üzrə məsləhətçi** Milli Platforma və onun ayrı-ayrı üzvlərinin fəaliyyətinin Platformanın qəbul etdiyi Etik Davranış Kodeksinə uyğun həyata keçirilməsinə nəzarət edir.
5.9.1.**Etik davranış məsələləri üzrə məsləhətçi Milli Platformanın Ümumi Yığıncağında 2 il müddətinə seçilir.** Hər bir Platforma üzvü yalnız iki dəfə ardıcıl Etik davranış məsələləri üzrə **məsləhətçi** seçilə bilər.

**5.9.2. Etik davranış məsələləri üzrə məsləhətçi bu Nizamnamə ilə müəyyən olunmuş vəzifələrini həyata keçirərkən Milli** Platformanın fəaliyyətinə müdaxiləni istisna edən metodlardan istifadə edir – iclaslar və digər tədbirləri müşahidə edir, qəbul edilən sənədləri öyrənir, anonim olaraq üzvlərdən müsahibələr götürür, konfedisiallığı qorumaqla şikayətləri qəbul edir, onlara baxılması mexanizmini yaradır.

5.9.3.Etik davranış məsələləri üzrə məsləhətçi yalnız Etik Davranış Kodeksinin tələblərinin pozulması hallarını aşkarlayaraq qeydə alır və bu hallarla əlaqədar Nəzarət-Təftiş Qrupu və İdarə Heyətini məlumatlandırır.

5.9.4.Etik Davranış Kodeksinin tələblərinin pozulması hallarına görə intizam tənbehi barədə qərarı Nəzarət-Təftiş Qrupu Etik məsələlər üzrə məsləhətçi və İdarə Heyəti ilə məsləhətləşdikdən sonra qəbul edir.

5.9.5.Etik Davranış Kodeksinin tələblərinin pozulması halları ilə bağlı yaranmış mübahisəni Milli Platforma daxilində həll etmək mümkün olmazsa, Etik davranış məsələləri üzrə məsləhətçi və qarşı tərəf Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Nəzarət-Təftiq Qrupuna müraciət edə bilər.

5.9.6. Milli Platforma üzvlərinin Etik Davranış Kodeksi barədə məlumatlı olması və Etik Davranış Kodeksinin əlaçatan olması üçün müvafiq tədbirlər həyata keçirir.

**5.10. Milli Platformanın İşçi Qrupları** təcrübə mübadiləsi, birgə fəaliyyət imkanlarının artırılması məqsədilə ixtisalşamasına, əsas fəaliyyət sahəsinə uyğun olaraq formalaşan struktur vahididir. İşçi Qruplar Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun strukturuna uyğun olaraq aşağıdakı 5 istiqamət üzrə formalaşdırılır:

- İQ 1 - Demokratiya, insan hüquqları, yaxşı idarəçilik və sabitlik
- İQ 2 - İqtisadi inteqrasiya, Avropa İttifaqı siyasəti ilə yaxınlaşma
- İQ 3 - Ətraf mühit, iqlim dəyişikliyi və enerji təhlükəsizliyi
- İQ 4 - İnsanlar arasında ünsiyyət
- İQ 5 - Sosial-əmək siyasəti və sosial dialoq

Zərurət yarandığı halda Ümumi Yığıncaq tərəfindən yeni İşçi Qruplar yaradıla bilər.

5.10.1.İşçi qruplarda təmsil olunmağa dair qərarı Milli Platformaya üzv olmaq istəyən təşkilat ixtisaslaşmasına uyğun olaraq özü verir və Şərq Tərəfdaşlığı (ŞT) Vətəndaş Cəmiyyəti Forumuna nümayəndə seçkilərində iştirak etmək üçün Ərizədə qeyd edir.

5.10.2.Milli Platformanın üzvü olan təşkilat yalnız İdarə Heyətinin razılığı ilə İşçi Qruplarda təmsilçiliyini dəyişə bilər. Bunun üçün təşkilat İdarə Heyətinə əsaslandırılmış müraciət edir.

5.10.3.İşçi Qruplarının fəaliyyətinə Əlaqələndiricilər rəhbərlik edir. Əlaqələndiricilər İşçi Qrupların üzvləri tərəfindən sadə səs çoxluğu ilə iki il müddətinə seçilir.

5.10.4. Hər bir Platforma üzvü yalnız iki dəfə ardıcıl İşçi Qrup Əlaqələndiricisi seçilə bilər.

## 6. MİLLİ PLATFORMANIN FİLİAL və NÜMAYƏNDƏLİKLƏRİ

6.1.Milli Platforma Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər.
6.2.Milli Platformanın filialı onun olduğu yerdən kənarda təşkil edilir və fəaliyyətinin bir hissəsini həyata keçirir.
6.3.Milli Platformanın nümayəndəliyi onun olduğu yerdən kənarda təşkil edilir, Milli Platformanın maraqlarını təmsil edir və həmin maraqların müdafiəsini həyata keçirir.
6.4.Milli Platformanın filial və nümayəndəliyi hüquqi şəxs deyil, Milli Platformanın əmlakından pay alır və Milli Platformanın Ümumi Yığıncağı tərəfindən təsdiq edilən Əsasnaməyə əsasən fəaliyyət göstərir. Filial və nümayəndəliyin fəaliyyətinə görə Milli Platforma məsuliyyət daşıyır.
6.5.Filial və nümayəndəliklər Milli Platformanın İdarə Heyəti tərəfindən verilən səlahiyyət daxilində fəaliyyət göstərirlər.

## 7. MİLLİ PLATFORMANIN MÜLKİYYƏTİ və ƏMLAKININ FORMALAŞMA MƏNBƏLƏRİ

7.1.Milli Platformanın mülkiyyətini binalar, qurğular, avadanlıq, inventar, pul vəsaiti, qiymətli kağızlar və bu Nizamnamədə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün lazım olan başqa əmlak təşkil edir.
7.2. Milli Platformanın pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:
7.2.1.Könüllü əmlak haqları və ianələr;
7.2.2.Malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;
7.2.3.Öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
7.2.4.Qrantlar;
7.2.5.Qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.
7.3.Milli Platforma əldə edilmiş gəliri təsisçiləri (üzvləri) arasında bölməyərək yalnız öz məqsədlərinə nail olunmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirə bilər.
7.4.Milli Platformanın mülkiyyəti üzərində hüquqlar bu Nizamnamə ilə müəyyən edilmiş qaydada həyata keçirilir.
7.5.Milli Platformanın birinci maliyyə ili qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınma tarixindən başlanır və həmin ilin dekabr ayının 31-də tamamlanır. Növbəti maliyyə illəri yanvar ayının 1-dən başlanır və dekabr ayının 31-də tamamlanır.

## 8. MİLLİ PLATFORMANIN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

8.1.Milli Platformanın fəaliyyətinə onun qüvvədə olan qanunvericiliyə uyğun yenidən təşkil edilməsi (birləşdirmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ya onun ləğv edilməsi yolu ilə xitam verilir.

8.5. Milli Platformanın yenidən təşkilindən sonra hüquq varisliyi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.
8.6. Milli Platformanın ləğv edilməsi ilə bağlı bütün əmlak məsələləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

**9. Bu Nizamnaməyə dəyişiklik və əlavələr edilməsi qaydası**

9.1. Bu Nizamnaməyə dəyişiklik və əlavələr Milli Platformanın Ümumi Yığıncağında iştirak edənlərin 2/3 hissəsinin səs çoxluğu ilə qəbul edilən qərarla edilə bilər.